***ALİ MƏCLİSİN İCLASI***

*18 fevral 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*
*birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli Günay xanım və media nümayəndələri, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının üçüncü iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 44 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 44 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli həmkarlar!

Bugünkü iclasın gündəliyinə 2 məsələ daxil edilmiş və sizlərə təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsidir.

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 24-cü maddəsinə əsasən cari il bitdikdən sonra 1 aydan gec olmayaraq müvəkkil Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə illik məruzəni təqdim edir və həmin məruzə ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında çıxış edir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsinin layihəsi Ali Məclisin müzakirəsinə çıxarılması üçün Ali Məclisin Hüquq siyasəti komitəsinə göndərilmişdir.

Layihə 16 fevral 2026-cı il tarixdə Hüquq siyasəti komitəsində müzakirə olunmuş, komitənin rəyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə edilmişdir.

Məruzəni təqdim etmək üçün söz Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayevaya verilir.

Buyurun, Günay xanım!

**G.Rzayeva,** *Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Hər kəsi salamlayır və “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsinin qısa icmalını təqdim edirəm.

2025-ci il ölkəmizin tarixində xüsusi əhəmiyyət kəsb edən dövr kimi yadda qalmışdır. Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilmişdir. Bu isə dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə, konstitusion dəyərlərin daha dərindən dərk edilməsinə və insan hüquqlarının təmininin yeni mərhələyə yüksəlməsinə xidmət edir. Suverenlik isə bu hüquqların müstəqil, kənar təsirlərdən azad şəkildə qorunmasının fundamental şərtidir.

Ölkəmiz bu gün istər beynəlxalq, istərsə də regional miqyasda, bütün müstəvilərdə öz mövqeyini ortaya qoyaraq sülhə, sabitliyə, sivilizasiyalararası dialoqa töhfə verir. 2025-ci ilin avqust ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri çərçivəsində Ermənistanla imzalanan Birgə Bəyannamədə regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyəti vurğulanmış, Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpa olunması üçün razılığa gəlinmişdir.

Səfər çərçivəsində əldə olunan razılaşmalar və verilən mesajlar göstərir ki, Azərbaycan regional sülhün, iqtisadi inkişafın və beynəlxalq əməkdaşlığın etibarlı tərəfdaşı olaraq öz mövqeyini möhkəmləndirməkdədir.

Bir sözlə, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin bərpa olunması Naxçıvan əhalisinin öz ölkəsi daxilində maneəsiz hərəkət etmək hüququnu təmin edəcəkdir.

“Konstitusiya və Suverenlik İli” münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında genişmiqyaslı amnistiya qərarının layihəsi Milli Məclisə təqdim edilmiş, müstəqillik dövrünün ən böyük amnistiya aktı qəbul olunaraq, insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqlik bir daha nümayiş etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında da 2025-ci il ərzində amnistiya aktının icrası çərçivəsində müvafiq dövlət qurumları tərəfindən kompleks və əlaqələndirilmiş tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada təhqiqat və istintaq orqanları, məhkəmələr, icra məmurları, hərbi hissə komandanlıqları və cəzaçəkmə müəssisələri tərəfindən, ümumilikdə, 254 şəxsə amnistiya tətbiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası ölkəmizin ümumi inkişaf strategiyasında xüsusi yer tutur və burada həyata keçirilən hər bir təşəbbüs insan hüquqlarının qorunması və sosial rifahın təmin olunmasına xidmət edir. Naxçıvan Muxtar Respublikasının sosial, iqtisadi və hüquqi inkişafının balanslı şəkildə təmin edilməsi istiqamətində atılan addımlar bölgəyə göstərilən xüsusi diqqət və qayğının bariz nümunəsidir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” muxtar respublikanın davamlı inkişafı üçün möhkəm institusional və hüquqi baza formalaşdırmışdır. Sözügedən dövlət proqramı yalnız iqtisadi və sosial sahələri deyil, insan hüquqlarının təminat mexanizmlərinin gücləndirilməsini də prioritet istiqamət kimi müəyyən etmişdir. “Konstitusiya və Suverenlik İli”ndə Naxçıvan Muxtar Respublikasının inkişafına yönəlmiş mühüm tədbirlərdən biri də yerli sahibkarlığın dəstəklənməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının rezidentlərinə 10 illik vergi, gömrük və sosial sığorta güzəştlərinin tətbiq edilməsi olmuşdur. Bu qərarlar muxtar respublikanın iqtisadi potensialının gücləndirilməsinə, yeni biznes təşəbbüslərinin təşviqinə və dayanıqlı məşğulluğun təmininə xidmət edir. Bütövlükdə, həyata keçirilən kompleks və məqsədyönlü tədbirlər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının davamlılığını təmin etməklə yanaşı, insan hüquqlarının qorunması və sosial rifahın yüksəldilməsi istiqamətində mühüm nəticələrə zəmin yaradır.

Bu inkişaf prosesində insan hüquq və azadlıqlarının qorunmasının davamlı və sistemli şəkildə təmin olunması mühüm institusional mexanizmlərin mövcudluğunu zəruri edir. Bu baxımdan Ombudsman institutu muxtar respublikada insan hüquqlarının müdafiəsində, vətəndaş-dövlət münasibətlərində hüquqi tarazlığın qorunmasında əsas rol oynayır. Bir sözlə, Ombudsman insan hüquqlarının müdafiəsi sahəsində milli prioritetlərin regional səviyyədə effektiv icrasına xidmət edir.

Ombudsman 2025-ci ildə də öz fəaliyyətini konstitusiyanın aliliyinə, qanunun hökmranlığına və insan hüquqlarının etibarlı müdafiəsinə əsaslanaraq həyata keçirmişdir. Ombudsmanın icraatında 2025-ci il ərzində 241 müraciət olmuşdur (Müraciətlərin 190-nı şikayət, 51-ni isə ərizə təşkil etmişdir). Bu müraciətlər Ombudsmana yazılı (o cümlədən elektron) qaydada göndərilmiş, həmçinin Aparatda şəxslərin qəbulu, “Konstitusiya və Suverenlik İli” çərçivəsində Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanasına, müvəqqəti saxlama yerlərinə, hərbi hissələrə, sosial xidmət mərkəzlərinə, internat məktəbinə, təhsil və tibb müəssisələrinə həyata keçirilmiş başçəkmələr və monitorinqlər zamanı təqdim edilmişdir.

Hesabat dövründə Ombudsman tərəfindən keçirilən kollektiv və fərdi qəbullarda, açıq görüşlərdə, başçəkmə və monitorinqlərdə, aksiya və digər tədbirlərdə iştirak edən, ümumilikdə, 9634 şəxs dövlət və vətəndaş münasibətində Ombudsmanın aktiv dəstəyini hiss etmişdir.

Hesabat ilində Ombudsmana dövlət qurumlarının fəaliyyəti ilə əlaqədar daxil olmuş şikayətlər üzrə statistik göstəricilər təhlil edilmişdir. Bəzi müraciətlərdə iki və daha artıq şikayət olunan subyektin olması nəzərə alınmaqla, müvafiq mərkəzi icra hakimiyyəti orqanları və onların tabeliyindəki qurumlardan 144, məhkəmə hakimiyyəti orqanlarından 6, yerli icra hakimiyyəti orqanlarından 22, bələdiyyələrdən 7, vəzifəli şəxslərdən 10, digər subyektlərdən isə 7 şikayət daxil olmuşdur.

Daxil olmuş müraciətlərin hüquqi kateqoriyasına görə ən çoxunu, yəni 30,3 faizini hüquq və azadlıqların inzibati və məhkəmə təminatı təşkil etmişdir. Müraciətlərin 20,3 faizi əmək, 19,5 faizi sosial təminat, 5,4 faizi isə mülkiyyət hüququnun təmini və müdafiəsi ilə bağlı olmuşdur. Digər müraciətlər isə vətəndaşlıq, təhsil, azadlıq, müraciət etmək, informasiya əldə etmək, özbaşınalıqdan müdafiə və vicdanlı davranış, azad sahibkarlıq, şərəf və ləyaqətin müdafiəsi, sağlamlığın qorunması, hüquqi yardım almaq, təhlükəsiz yaşamaq və digər hüquqlarla əlaqəlidir.

Qanunun tələblərinə müvafiq olaraq Ombudsman tərəfindən 46 müraciətə baxılmaqdan imtina edilmişdir (onlardan 6 müraciət aidiyyəti üzrə göndərilmişdir). 195 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, 66 müraciətdə (59 tam, 7 qismən) hüquq pozuntusu aradan qaldırılaraq ərizəçilərin hüquqları bərpa edilmiş, 60 müraciətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmiş, 20 müraciət üzrə hüquqi məsləhətlər verilmiş, 9 müraciət nəzarətdə saxlanılmış, 40 müraciətin icraatı davam etdiyindən növbəti ilə qalıq qalmışdır (onlardan 31-i dekabr ayında daxil olmuşdur).

Qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılarkən vəzifəli şəxslərin yazılı arayışları tələb olunmuş, yerində araşdırmalar aparılaraq nəticələri sənədləşdirilmiş, həmçinin hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə aidiyyəti dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələri və mütəxəssislər dəvət edilərək zəruri tədbirlər görülmüş, ekspert rəyləri alınmışdır.

Müraciətlərin araşdırılması və təhlili təcrübəsi, habelə dövlət qurumları ilə əməkdaşlıq əlaqələri bir sıra problemlərin operativ həllində və baş verə biləcək pozuntu hallarının qarşısının alınmasında əhəmiyyətli rol oynamışdır. Nəticədə baxılmış müraciətlərin 46 faizi üzrə pozuntu halları aradan qaldırılaraq ərizəçilərin pozulmuş hüquqları bərpa olunmuşdur.

Muxtar respublikanın aidiyyəti dövlət orqanlarına vətəndaşların etdiyi müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtında baxılmaması və yazılı cavab verilməməsi barədə şikayətçilər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər üzrə vətəndaşların hüquqlarını pozan dövlət orqanlarına zəruri tədbirlərin görülməsi ilə bağlı müvafiq tələblər ünvanlanmış, hüquq pozuntuları aradan qaldırılaraq vətəndaşların hüquqları təmin edilmişdir.

İnsan hüquq və azadlıqlarının təmini vəziyyətini daim diqqətdə saxlayaraq monitorinqini aparan Ombudsman 2025-ci il ərzində səlahiyyətli dövlət orqanlarına insan hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi, o cümlədən əhalinin həssas qruplarının problemlərinin operativ şəkildə həll olunması məqsədilə təklif və tövsiyələrlə müraciət etmişdir.

İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələr, vəzifəli şəxslər tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları ilə bağlı Ombudsmanın ünvanına 1 şikayət daxil olmuş və araşdırılmış, bu sahədə təşkil edilən tədbirlərdə 185 nəfər iştirak etmişdir.

Məlum olduğu kimi, 2025-ci il Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin keçirilməsi ilə əlamətdar olmuşdur. Seçkilərin keçirilməsi ərəfəsində seçki hüququ ilə bağlı müxtəlif mövzularda silsilə maarifləndirmə tədbirləri təşkil olunmuş, vətəndaşların seçki hüququnun təmini, seçki qanunvericiliyinin tələblərinə riayət olunması məsələləri dəyərləndirilmişdir.

Bələdiyyə seçkiləri günü Ombudsman və təsisatın əməkdaşları Naxçıvan şəhəri və rayonlarda 6 seçki dairəsi üzrə 97 seçki məntəqəsində, o cümlədən hərbi hissələrdə və penitensiar müəssisələrdə müstəqil olaraq öz təşəbbüsləri ilə müşahidələr aparmışlar.

Müşahidələr zamanı Ombudsman həm məntəqə seçki komissiyalarının üzvləri, həm də müşahidəçi və seçicilərlə bilavasitə görüşmüş, səsvermə prosesi ilə bağlı onların rəylərini öyrənmiş, pozuntu halları və seçkilərə müdaxilə halları müşahidə edilməmişdir.

Monitorinqlər göstərmişdir ki, əlilliyi olan, yaşlı və müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslərin seçki hüququnun həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərindən irəli gələn şərait yaradılmışdır.

"İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizm funksiyalarının həyata keçirilməsi məqsədilə Ombudsman və onun Preventiv Qrupu (PQ) tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanma şəraitinin, rəftar məsələlərinin, sənədləşdirmənin, habelə daxil olmuş müraciətlərin araşdırılması məqsədilə 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin müəssisələrinə 33, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 15, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə 4, Səhiyyə Nazirliyinin müəssisəsinə 4, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisəsinə 2 və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tabeliyində olan Naxçıvan Şəhər Müvəqqəti Yerləşdirmə Mərkəzinə 2 başçəkmə olmaqla, 60 başçəkmə həyata keçirilmişdir. Bunlardan 15-i plandankənar olmuşdur.

Başçəkmələr zamanı saxlanılan şəxslər təkbətək və konfidensial qaydada qəbul edilmiş, onların hüquqlarının təmini vəziyyəti, o cümlədən müəssisələrdə saxlanma şəraiti, rəftar, tibbi xidmət, görüş, telefon danışığı və bu kimi digər məsələlər, habelə mətbuatda və sosial şəbəkələrdə həmin şəxslər barəsində yayımlanmış məlumatlar araşdırılmış, əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində Ombudsmanın tövsiyələrinin icra vəziyyəti yoxlanılmışdır.

Başçəkmələr həyata keçirilərkən hüquq pozuntusu faktlarının aşkar edilməsi və qarşısının alınması məqsədilə texniki vasitələrdən istifadə edilməklə foto, audio və video qeydiyyatları aparılmış, başçəkmələrin gedişi və nəticələri protokollaşdırılmış, zəruri tədbirlər görülmüşdür.

Başçəkmələr zamanı 970 şəxslə ümumi, 41 şəxslə təkbətək və konfidensial görüş keçirilmişdir.

Başçəkmələrdə Ombudsmanın icraatına 13 müraciət daxil olmuş, müraciət edən 4 şəxsin pozulmuş hüquqları bərpa edilmiş, 1 müraciətə baxılmasından imtina edilərək aidiyyəti üzrə göndərilmiş, 3 müraciət üzrə hüquqi məsləhət verilmiş, 2 müraciət nəzarətdə saxlanılmış, 3 müraciətdə hüquq pozuntusu aşkar edilməmişdir.

Başçəkmələr zamanı saxlanılan şəxslərin ləyaqətinin qorunması, yaşayış sahəsi, qida və gigiyena məsələlərinə, işçi heyətin onlarla humanist və müsbət rəftar etmə öhdəliyinə əməl etmə məsələlərinə xüsusi diqqət yetirilmiş, saxlanılan şəxslərin saxlanılması üçün bütün mümkün sahələrdən istifadə, gigiyena və sanitariya qurğuları, onların sağlamlığının qorunması və açıq havada olmaq imkanı monitorinq olunmuşdur.

Hesabat dövründə muxtar respublikada əhalinin müxtəlif sosial qruplarının - qadınların, uşaqların, miqrantların, ahıl şəxslərin, müharibə veteranlarının, şəhid ailələrinin və məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, hüquq bərabərliyinin davamlı təmin edilməsi, hüquq və azadlıqlarının müdafiəsi, onların pozulmuş hüquqlarının bərpası Ombudsmanın əsas vəzifələrindən olmuşdur.

Ombudsmanın ünvanına şəhid ailələrindən, müharibə veteranlarından və müharibə ilə bağlı əlilliyi olan şəxslərdən daxil olmuş müraciətlərə xüsusi həssaslıqla yanaşılmış, müvafiq araşdırmalar aparılmış, bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə birgə problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın muxtar respublikada həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması məqsədilə Ombudsmanın müstəqil monitorinq mexanizm funksiyalarının icrası istiqamətində Ombudsman və onun Monitorinq qrupları tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrdə 63, Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələrdə 8, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan müəssisələrdə 4, Əlahiddə Ümumqoşun Ordunun tabeliyində olan müəssisədə 1, Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə 12 monitorinq olmaqla, ümumilikdə, sosial xidmət, təhsil və tibb müəssisələrində 88 monitorinq həyata keçirilmişdir. Bunlardan 6-sı plandankənar olmuşdur.

Monitorinqlər zamanı müəssisələrdə hüquqların təmini vəziyyəti yoxlanılmış, bu məsələlərə diqqətin artırılması və qanunvericiliyin tələblərinə daha ciddi əməl olunması məqsədilə maarifləndirmə işi həyata keçirilmiş və yuxarı dövlət orqanlarına təklif və tövsiyələr verilmişdir.

Həbs yerlərində saxlanılan və məhkum edilmiş şəxslərin hüquqlarının təmin edilməsi sahəsində Ombudsman tərəfindən aparılan təhlil və ümumiləşdirmələr göstərir ki, 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 11 məhkum, Nazirliyin yerli icra və probasiya qurumlarında 37 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 7 məhkumun cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilərək cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmiş, 1 məhkumun cəzasının çəkilməsi təxirə salınmışdır. Azərbaycan Respublikası Prezidentinin 26 may 2025-ci il tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamı ilə 1 məhkum barəsində əfvetmə tətbiq olunmuşdur.

Ümumilikdə, 2025-ci il ərzində barələrində humanist cəza siyasəti tətbiq edilən 311 şəxs cəzadan, cəzanın çəkilməmiş hissəsindən azad edilmiş və ya cəzası azaldılmışdır.

2025-ci il ərzində, ümumilikdə, 173 cəza çəkməkdən azad edilmiş şəxs barəsində sosial adaptasiya tədbirləri tətbiq edilmişdir ki, bunlardan 136 şəxsə minimum aylıq əməkhaqqının dörd misli miqdarında birdəfəlik pul müavinəti verilmiş, 6 şəxs işlə təmin olunmuş, 22 şəxs özünüməşğulluq proqramı üzrə qeydiyyata alınmış, 9 şəxslə "Fərdi sosial iş" proqramı çərçivəsində sosial müdafiə tədbirləri həyata keçirilmişdir.

"Konstitusiya və Suverenlik İli"nə böyük bir töhfə olan Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 871 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026 – 2028-ci illər üçün Milli Fəaliyyət Planı"nın məqsədləri gender bərabərliyinin təmin edilməsi üzrə hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, qadınların ictimai, sosial və iqtisadi fəallığının artırılması, sosial cəhətdən həssas qrupdan olan qadınların dəstəklənməsi, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı tədbirlərin gücləndirilməsi və cəmiyyətdə gender bərabərliyi mədəniyyətinin təbliği və əhalinin məlumatlılıq səviyyəsinin artırılmasıdır.

2025-ci il ərzində Ombudsmanın icraatına daxil olan 241 müraciətin 82-si (55 şikayət, 27 ərizə olmaqla), yəni 34,02 faizi sosial kateqoriyasına görə qadınlar tərəfindən edilmişdir.

Əhalinin həssas qruplarından olan qadınların hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə məhkəmə qərarlarının icra olunmaması, əmək hüququnun pozulması, təhsil, məşğulluq, pensiya, əlilliyin təyin edilməsi, tibbi müayinə və müalicə məsələləri, məişət zorakılığı və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Hesabat dövründə insan hüquqlarının ayrı-ayrı istiqamətləri üzrə, eləcə də müxtəlif sosial qruplara ünvanlanmış plan üzrə 72, plandankənar 26 olmaqla, 98 maarifləndirici tədbir keçirilmişdir. Ümumilikdə, 69 müəssisəni əhatə edən tədbirlərdə 3700 nəfər iştirak etmişdir. Tərəfimizdən təşkil edilmiş tədbirlərdə vətəndaş cəmiyyəti və media nümayəndələrinin iştirakına xüsusi diqqət yetirilmişdir.

Ombudsman insan hüquq və azadlıqlarının müdafiəsi, hüquqi, elmi-analitik, informasiya və metodiki məsələlər üzrə öz fəaliyyətini Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə əlaqələndirmişdir. Bu çərçivədə Ombudsman və Aparatın əməkdaşları beynəlxalq səviyyəli 1 tədbirdə iştirak etmişdir.

Hesabat dövründə Qərbi Azərbaycana qayıdışla bağlı hüquqi maarifləndirmə və ictimai məlumatlandırma tədbirlərinə xüsusi önəm verilmiş, bu istiqamətdə həyata keçirilən fəaliyyətlər sistemli və məqsədyönlü xarakter daşımışdır. Belə ki, "Qərbi azərbaycanlıların hüquqlarının pozulması və onlara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti" mövzusunda maarifləndirici videoçarx hazırlanmış, Naxçıvan Dövlət Universiteti ilə birgə "Qərbi Azərbaycana qayıdışın hüquqi və konstitusional əsasları: milli və beynəlxalq normalar kontekstində" mövzusunda konfrans təşkil edilmişdir.

Hesabat ilində Ombudsman təsisatı tərəfindən "Ombudsmandan uşaqlara: Hüquqlarınız sizi qoruyur, vəzifələriniz sizi böyüdür!" adlı buklet və "Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında 2022-2024-cü illərə dair Tematik Materiallar" adlı vəsait hazırlanaraq aidiyyəti qurumlara və kitabxanalara paylanılmışdır.

Ombudsmanın fəaliyyəti yerli və ölkə mediası tərəfindən geniş şəkildə işıqlandırılmış, il ərzində televiziya və radio kanallarına 23 müsahibə verilmişdir. Ümumilikdə, Ombudsmanın fəaliyyəti ilə bağlı yerli və ölkə mediasında 121, sosial media hesablarında isə 1142 informasiya materialı olmaqla, ümumilikdə, 1263 informasiya materialı yayımlanmışdır.

Ombudsmana ünvanlanmış müraciətlərin təhlili və ümumiləşdirilməsi, aparılmış başçəkmə və monitorinqlərin nəticələrinə əsasən insan hüquq və azadlıqlarının səmərəli təmin olunması və etibarlı müdafiəsi məqsədilə:

-Rayonlarda məşğulluq imkanlarının artırılması üçün yerli əmək bazarına uyğun aktiv məşğulluq proqramlarının genişləndirilməsini;

-Gənclərin məşğulluq və sosial hüquqlarının təmin edilməsi məqsədilə onlara yönəlmiş proqramların genişləndirilməsini;

-Vakansiyalar barədə vətəndaşların əvvəlcədən məlumatlandırılması mexanizmlərinin gücləndirilməsini;

-Kənd yerlərində suvarma suyunun ədalətli bölgüsü məqsədilə bərabərliyin və şəffaflığın təmin edilməsini, ayrı-seçkiliyin aradan qaldırılmasını və infrastrukturun yenilənməsini;

-İçməli su təminatında yaranan uzunmüddətli fasilələr zamanı alternativ təminat imkanlarının yaradılmasını;

-Tibb müəssisələrində kadr təminatının gücləndirilməsini, maddi-texniki bazanın yenilənməsini, bütün ərazilərdə tibbi xidmətə əlçatanlığın təmin edilməsini, bərabər imkanların yaradılmasını;

-Sağlamlığın qorunması hüququnun effektiv təmin olunması məqsədilə psixiatriya yardımının göstərilməsi sahəsində şəraitin yaxşılaşdırılmasını, avadanlıq və resurs təminatının gücləndirilməsini, müasir standartlara uyğun psixonevroloji sosial xidmət müəssisəsinin yaradılmasını;

-Y.Budaqov adına Psixi Xəstəliklər Dispanserində xəstəliklərin ağırlıq dərəcəsi və növü nəzərə alınmaqla pasiyentlərin eyni şəraitdə stasionar müalicə olunmalarının qarşısının alınmasını, Dispanserin binasının əsaslı təmiri və yenidən qurulmasını;

-Pasiyentlərin psixi vəziyyətinin müayinəsini, psixi pozuntusunun diaqnostikasını, müalicəsini və profilaktikasını, psixi-sosial reabilitasiyasını özündə birləşdirən ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi məqsədilə kadr potensialının gücləndirilməsini və peşəkarlığın artırılmasını;

-Əlilliyi olan şəxslər üçün xidmət infrastrukturunun standartlara uyğunlaşdırılmasını, yeni infrastruktur layihələrinin planlaşdırılması zamanı əlilliyi olan şəxslərin ehtiyaclarının və fiziki imkanlarının nəzərə alınmasını;

-Əlilliyin müəyyən olunması ilə bağlı həkim-məsləhət komissiyalarının göndərişləri ilə tibbi-sosial ekspert komissiyalarının rəyləri arasında ziddiyyətlərin aradan qaldırılması məqsədilə "Tibbi-Sosial Ekspert Komissiyasına göndərişlərin reyestri"nə daxil edilməli olan məlumatlara dair tələblərin dəqiq müəyyən edilməsini;

-Tibbi-sosial ekspertiza prosesində qərarların əsaslandırılmasının hüquqi mexanizmlərlə möhkəmləndirilməsini;

-Uşaqların təhsil hüququnun tam və bərabər şəkildə təmin edilməsi məqsədilə real ehtiyacların qiymətləndirilməsini, yeni internat tipli təhsil müəssisələrinin yaradılmasını;

-Ümumtəhsil müəssisələrində psixoloq ştatlarının artırılmasını və psixoloji yardımın keyfiyyətinin yüksəldilməsini;

-Məktəbəqədər təhsil müəssisələrində psixoloq ştatlarının yaradılmasını və psixoloji işin təşkilini;

-Təhsil müəssisələrində təmir-bərpa işlərinin aparılmasını, təhlükəsizlik standartlarına uyğunlaşdırılmasını;

-Məktəblərdə və digər təlim-tədris müəssisələrində insan hüquqları mövzusunun tədris edilməsini və bu sahədə maarifləndirmə proqramlarının həyata keçirilməsini;

-Məişət zorakılığına qarşı effektiv müdafiə mexanizmlərinin tətbiqinin genişləndirilməsini;

-Məişət zorakılığı və digər təhlükələrə məruz qalmış qadınların müdafiəsi məqsədilə sığınacaq və reabilitasiya xidmətlərinin yaradılmasını, hüquqi-psixoloji dəstəyə əlçatanlığın təmin edilməsini;

-Məhkəmə qərarlarının, xüsusilə uşaq hüquqlarına təminat verən məhkəmə qərarlarının icrası zamanı borclu şəxsin axtarışı prosesinin gecikdirilmədən icra edilməsini;

-Müvəqqəti saxlama yerlərində, istintaq təcridxanasında, cəzaçəkmə müəssisələrində təmir-bərpa işlərinin genişləndirilməsini və infrastrukturun müasirləşdirilməsini;

-Məhkumların maddi ehtiyaclarının, habelə aliment və başqa borclarının ödənilməsi və ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində yeni istehsal sahələrinin yaradılmasını;

-Penitensiar müəssisələrdə məhkumlara mütəmadi olaraq psixoloji yardımın göstərilməsi məqsədilə məhkumlarla işləmək bacarığına malik peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsini;

-Video zənglərin təşkil edilməsinin məhkumun ailəsi və yaxınları ilə əlaqələrini möhkəmləndirməklə islah prosesinə müsbət təsirini, görüş üçün sərf ediləcək nəqliyyat xərclərinə (xüsusilə uzaqda yaşayanlar üçün) qənaəti nəzərə alaraq məhkumların videogörüş keçirmək hüququnun təmin olunması üçün zəruri addımların atılmasını;

-Məhkumların sosial adaptasiyası və cəmiyyətə inteqrasiyası üçün hazırlıq imkanlarının genişləndirilməsini təklif edirəm.

Ombudsmanın fəaliyyətinə etimad göstərərək müraciət edən bütün şəxslərə, həmçinin insan hüquq və azadlıqlarının qorunması naminə konstruktiv əməkdaşlıq edən dövlət qurumlarına və vətəndaş cəmiyyəti nümayəndələrinə təşəkkürümü bildirir, birgə səylərimizin hüquqların müdafiəsinin güclənməsinə töhfə verəcəyinə inanıram.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Günay xanım!

Bildiyiniz kimi, illik məruzəyə Hüquq siyasəti komitəsində baxılmışdır və söz komitənin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

Ombudsman təsisatı müasir demokratik cəmiyyətlərdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mühüm rol oynayır. Hər il təqdim olunan illik məruzə isə Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının vəziyyətini əks etdirən ən mühüm rəsmi sənədlərdən biri hesab olunur. Ombudsmanın illik məruzəsi sadəcə hesabat xarakterli sənəd deyil, həm də hüquq və azadlıqların daha etibarlı müdafiəsi sahəsində yeni mexanizmlərin yaradılması üçün strateji yol xəritəsidir. Bununla bərabər illik məruzə insan hüquqlarının müdafiəsində şəffaflıq, hesabatlılıq və sistemli inkişaf mexanizmini də təmin edir.

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 24-cü maddəsinə əsasən cari il bitdikdən sonra 1 aydan gec olmayaraq Müvəkkil Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə illik məruzəni təqdim edir və həmin məruzə ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında çıxış edir. Müvəkkilin illik məruzəsində onun illik fəaliyyəti, Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının təmin edilməsi sahəsində görülmüş işlər öz əksini tapır.

“Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi forma və məzmun baxımından qanunvericiliyin tələblərinə uyğun hazırlanmışdır.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsi ilə bağlı tələblər “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu ilə müəyyənləşdirilir.

Həmin qanunun 14.2-ci maddəsində qeyd edilir ki, illik məruzədə insan hüquqlarını pozan, müvəkkilin tələbləri ilə hesablaşmayan dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların, vəzifəli şəxslərin adları çəkilir və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir.

Eyni zamanda qanunun 14.3-cü maddəsinin tələbinə əsasən Müvəkkilin illik məruzəsində insan hüquqlarının təmin edilməsi ilə əlaqədar ümumi fikir, rəy və tövsiyələr öz əksini tapmalıdır.

“Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi sadəcə insan hüquqlarının təmin edilməsi sahəsində görülmüş işlərin məcmusu deyil, o, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətlərinin təhlil edilməsi, vətəndaş müraciətlərinə dövlət orqanlarının yanaşmasının müəyyənləşdirilməsi, qısacası onların fəaliyyətlərinin ətraflı təhlili baxımından sistemli analitik sənəddir.

Ümumilikdə, məruzə Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunmasına hüquqi və institusional baxışın təmin edilməsi, hüquq pozuntularının monitorinqi və sistemləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsinə verdiyi töhfə, parlament və ictimai nəzarətin gücləndirilməsi, preventiv və maarifləndirici funksiyanın effektivliyi, şəffaflıq və hesabatlılıq baxımından oynadığı rol əhəmiyyətlidir.

“Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş, komitənin 16 fevral 2026-cı il tarixdə keçirilən iclasında Hüquq siyasəti komitəsinin üzvlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşının iştirakı ilə geniş müzakirə edilmişdir. Komitə iclasında illik məruzə barədə ətraflı məlumat verilmiş, illik məruzə iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur. Məruzə komitə iclasında geniş müzakirə edilmiş, deputatlar məruzə ilə əlaqədar sual, fikir, təklif və iradlarını səsləndirmişdirlər. Komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy qəbul edilmişdir. Qəbul edilmiş rəyə əsasən “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin gündəliyinə daxil edilməsi üçün aidiyyəti üzrə təqdim edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

“Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 24-cü maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) illik məruzə ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında çıxış edir. “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 8.2.4-cü maddəsinə uyğun olaraq Ali Məclisin Hüquq siyasəti komitəsinin 16 fevral 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşlarının iştirakı ilə müzakirə edilmişdir.

“Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi “Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 14.2 və 14.3-cü maddələrinin tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1 və 8.2.4-cü maddələrini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunsun.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Məruzə ilə əlaqədar deputatlardan çıxış etmək istəyən varmı?

Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

Təqdim olunmuş məruzə bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq ardıcıl və sistemli şəkildə həyata keçirilir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş hüquqi dövlət quruculuğu siyasəti bu gün də ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi dövlətçilik dəyərlərinə, hüququn aliliyinə, insan hüquq və azadlıqlarının təmininə verilən ali diqqətin bariz nümunəsidir. Xüsusilə qeyd olunmalıdır ki, müstəqillik dövrünün ən böyük amnistiya aktının qəbul edilməsi ölkədə humanizm və hüquqi dövlət prinsiplərinin daha da möhkəmləndirilməsinə, sosial ədalətin təmininə xidmət edən mühüm addım kimi yadda qalmışdır.

Eyni zamanda regionda kommunikasiyaların açılması və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin bərpası istiqamətində əldə olunmuş razılaşmalar muxtar respublika əhalisinin sərbəst hərəkət hüququnun təmininə mühüm töhfə verəcəkdir. Bu həm suverenliyin möhkəmləndirilməsi, həm də insan hüquqlarının daha geniş miqyasda reallaşdırılması baxımından strateji əhəmiyyət daşıyır.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində həyata keçirilən tədbirlər, eləcə də rezidentlər üçün tətbiq edilən vergi və gömrük güzəştləri iqtisadi fəallığın artmasına, məşğulluğun genişlənməsinə və sosial rifahın yüksəlməsinə xidmət edir.

Məruzədə Ombudsman institutunun fəaliyyətinə dair təqdim olunan statistik göstəricilər xüsusilə diqqətəlayiqdir. Bu da Ombudsman institutunun real və effektiv müdafiə mexanizmi kimi formalaşdığını göstərir. Eyni zamanda Aparatın strukturunun təkmilləşdirilməsi, həkim və psixoloq ştatlarının yaradılması, başçəkmə və monitorinqlərin genişləndirilməsi insan hüquqlarının müdafiəsinə daha peşəkar və kompleks yanaşmanın göstəricisidir.

Hörmətli həmkarlar!

Qarşıdakı dövrdə də insan hüquqlarının müdafiəsinin gücləndirilməsi, hüquqi maarifləndirmənin genişləndirilməsi və dövlət-vətəndaş münasibətlərində şəffaflığın artırılması əsas prioritetlərdən olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Əziz müəllim!

**Ə.Qasımov,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Günay xanım!

Hörmətli deputatlar və iclas iştirakçıları!

Müzakirəyə çıxarılan "Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında" Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi hüquqi dövlət prinsiplərinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikada tətbiqinin vəziyyətini əks etdirən əhəmiyyətli sənəddir. Məruzə hüquqi müdafiə mexanizmlərinin faktiki effektivliyini qiymətləndirməyə imkan verir.

Məruzənin təhlili göstərir ki, hesabat dövründə Ombudsman institutu vətəndaşların hüquqlarının müdafiəsində funksional və institusional baxımdan mühüm rol oynamışdır. Müraciətlərin sayı, onların hüquqi kateqoriyalar üzrə bölgüsü və nəticəliliyi institutun fəaliyyəti çərçivəsində hüquq pozuntularının aradan qaldırılmasının real mexanizminə çevrildiyini təsdiqləyir. Xüsusilə vurğulanmalıdır ki, müraciətlərin əhəmiyyətli hissəsi üzrə hüquqların faktiki bərpasına nail olunmuşdur ki, bu da hüquqi müdafiə institutunun səmərəliliyinin əsas göstəricilərindəndir.

Bununla yanaşı, məruzədə azadlıqdan məhrumetmə yerlərində saxlanma şəraiti, penitensiar müəssisələrdə tibbi və psixoloji xidmətlər, eləcə də Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin bəzi rejim bölmələrinə keçirilən baxışlarda məhkumların gigiyena-sanitariya qaydalarına uyğun zəruri maddi-məişət şəraiti ilə tam təmin olunma ilə bağlı məsələlərin sənəddə faktoloji əsaslarla əks etdirilməsi məruzənin analitik dəyərini əhəmiyyətli dərəcədə artırır.

Məruzədə xüsusi diqqət yetirilən istiqamətlərdən biri də hüquq və azadlıqların məhkəmə təminatı və məhkəmə qərarlarının icra vəziyyətidir. Hüquqi dövlət prinsipinə uyğun olaraq ədalət mühakiməsinin səmərəliliyi yalnız qərarların qəbul edilməsi ilə deyil, onların vaxtında və tam icrası ilə ölçülür. Bu sahədə müşahidə olunan çətinliklər hüquqi müəyyənlik və vətəndaşların ədalətə inamı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Eyni zamanda müşahidə olunur ki, Ombudsman tərəfindən irəli sürülmüş tövsiyələrin icra olunduğu hallarda insan hüquqlarının təminində nəzərəçarpacaq müsbət dəyişikliklər baş vermişdir. Bu, tövsiyə mexanizminin icra intizamı ilə müşayiət olunduğu təqdirdə hüquq pozuntularının qarşısının alınmasında effektiv hüquqi alətə çevrildiyini göstərir.

Bu baxımdan hesab edirəm ki, məruzədə əksini tapmış nəticə və tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınmalı, insan hüquqlarının müdafiəsi sahəsində institusional mexanizmlərin gücləndirilməsinə və icra səmərəliliyinin artırılmasına xidmət etməlidir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əziz müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Vüsal müəllim!

**V.Məmmədzadə,** *Ali Məclisin İntizam komissiyasının sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

Ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının müasir Konstitusiyası ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuşdur. Bu istiqamətdə görülən işlər hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlanmasına təkan vermiş, Ombudsman institutu təsis edilmiş və qanunvericilik bazası formalaşdırılmışdır.

Ombudsman institutunun yaradılması dövlət-vətəndaş münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlanğıcı olmuşdur. Bu strateji kurs bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir. Cənab İlham Əliyevin rəhbərliyi ilə insan hüquqlarının müdafiəsi sahəsində institusional mexanizmlər daha da təkmilləşdirilmiş, şəffaflıq, hesabatlılıq və vətəndaş məmnunluğu dövlət siyasətinin prioritet istiqamətlərinə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikasında Ombudsman institutunun 2025-ci il üzrə fəaliyyətinə dair hesabat vətəndaş müraciətlərinin obyektiv, qərəzsiz və operativ araşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirildiyini göstərir. Xüsusilə, gənc nəslin hüquqi biliklərinin artırılması və hüquqi şüurun formalaşdırılması baxımından görülən işlər mühüm əhəmiyyət daşıyır. Hesabatdan da göründüyü kimi cəzaçəkmə, sosial müdafiə, təhsil və səhiyyə müəssisələrində keçirilən monitorinqlər hüquq və azadlıqların praktik müstəvidə qorunmasına xidmət edir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq deputat həmkarlarımı Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin 2025-ci ilə dair təqdim etdiyi hesabata müsbət rəy bildirməyə dəvət edirəm.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Vüsal müəllim!

Məruzə ilə bağlı əlavə çıxışı olan varmı?

Buyurun, Mahir müəllim!

**M.İsmayılov,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Günay xanım!

Hörmətli iclas iştirakçıları!

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələbinə əsasən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) hər il Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında məruzə ilə Ali Məclis qarşısında çıxış edir.

"Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında" Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi onu deməyə əsas verir ki, insan hüquqlarının pozulmasına dair şikayətlərə həssas yanaşılmış, hüquq pozuntusu hallarının aradan qaldırılması istiqamətində tədbirlər görülmüş, bununla bərabər, preventiv mexanizmin və müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi qanunvericiliyə uyğun təmin edilmişdir.

Mühüm fundamental hüquqların müdafiəsi sahəsində görülmüş işlər muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının təmin və bərpa edilməsinə mühüm töhfə verir.

“Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi hesabat sənədi olmaqla yanaşı, ölkəmizin hüquqi dövlət quruculuğuna, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsinin əhəmiyyətinə, vətəndaş məmnunluğuna, dövlət idarəçiliyinin vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətləndirildiyinin ən böyük göstəricisidir.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Mahir müəllim!

Başqa çıxış etmək istəyən varmı?

Buyurun, Şəhla xanım!

**Ş.Əhmədova,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

Azərbaycanda qanunun aliliyi və insan hüquqlarının ali dəyər kimi qəbul edilməsi dövlət fəaliyyətinin əsas prinsiplərinə çevrilmişdir. Qeyd etmək istəyirəm ki, 2025-ci il ölkəmizdə xüsusi əhəmiyyətə malik bir il kimi yadda qalmışdır. Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi dövlətimizin hüquqi və siyasi inkişaf yolunun məntiqi davamıdır. Bu qərar bir daha sübut edir ki, suverenlik yalnız ərazi bütövlüyü deyil, eyni zamanda vətəndaş hüquqlarının müstəqil, ədalətli və təsirli şəkildə qorunması deməkdir. “Konstitusiya və Suverenlik İli” çərçivəsində qəbul edilmiş genişmiqyaslı amnistiya aktı humanizm, sosial ədalət və insan hüquqlarına hörmət prinsiplərinin parlaq təzahürü olmuşdur. Bu fakt dövlətimizin insana verdiyi dəyərin real göstəricisidir.

Hörmətli iclas iştirakçıları,

Naxçıvan Muxtar Respublikası ölkəmizin sosial, iqtisadi və hüquqi inkişaf strategiyasında mühüm yer tutur. Bu prosesdə Ombudsman institutunun rolu xüsusilə vurğulanmalıdır. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) 2025-ci il ərzində fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun və beynəlxalq insan hüquqları standartlarına əsaslanaraq həyata keçirmişdir.

İnsan hüquqlarının qorunması yalnız dövlət institutlarının deyil, bütün cəmiyyətin birgə məsuliyyətidir. Ombudsman institutu bu prosesdə körpü rolunu oynayaraq dövlət və vətəndaş arasında etimadın möhkəmlənməsinə xidmət edir. 2025-ci ilin nəticələri göstərir ki, bu institut Naxçıvan Muxtar Respublikasında effektiv və etibarlı hüquq müdafiə mexanizmi kimi formalaşmışdır.

Ombudsmanın fəaliyyətinə etimad göstərərək müraciət edən bütün vətəndaşlara, insan hüquqlarının qorunması naminə konstruktiv əməkdaşlıq edən dövlət qurumlarına və vətəndaş cəmiyyəti nümayəndələrinə dərin təşəkkürümü bildirirəm. Əminəm ki, birgə səylərimiz nəticəsində insan hüquqlarının təminatı sahəsində daha böyük uğurlara imza atılacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Şəhla xanım!

Əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Məruzə ilə əlaqədar deputatlardan sualı olan varmı?

Buyurun, Azad müəllim!

**A.Novruzov.** Hörmətli Bəxtiyar müəllim!

Bildirmək istəyirəm ki, məruzə geniş və əhatəlidir. Mən də məruzənin qəbul edilməsinin tərəfdarıyam, lakin bir sualla Günay xanıma müraciət etmək istərdim.

Hörmətli Günay xanım!

Hesabat dövründə dövlət qurumlarının, bələdiyyələrin, digər qurumların, vəzifəli şəxslərin qərarı, hərəkət və hərəkətsizliyi nəticəsində insan hüquqlarının pozulması ilə bağlı məhkəməyə müraciət olubmu?

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Azad müəllim!

Günay xanım, sualları indi tək-tək yoxsa sonda birlikdə cavablandırmaq istəyirsiniz?

**G.Rzayeva,** *Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).*

Sonda hamısını birlikdə cavablandıra bilərəm.

**Sədrlik edən.** Bəli, uyğundur.

Deputatlardan əlavə sualı olan varmı?

Buyurun, Ramiz müəllim!

**R.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Günay xanım!

Mənim iki sualım var.

Birincisi rayonlar üzrə müraciət statistikası necədir?

İkincisi müraciətlərin sayına görə hansı rayon üstünlük təşkil edir?

**Sədrlik edən.** Sağ olun, Ramiz müəllim!

Əlavə sualı olan varmı?

Buyurun, Üzeyir müəllim!

**Ü.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar!

Mən də “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi ilə tanış olmuşam. Hörmətli Günay xanıma bir sual ünvanlamaq istəyirəm.

İnsan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması və milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil tərəfindən neçə şikayət üzrə yerində araşdırma aparılmışdır?

**Sədrlik edən.** Sağ olun, Üzeyir müəllim!

Başqa sualı olan varmı?

Yoxdur.

Hörmətli Günay xanım, xahiş olunur suallara münasibət bildirəsiniz.

**G.Rzayeva,** *Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

Əvvəlcə müzakirələrin aparılmasına və sualların verilməsinə görə şərait yaradıldığına, eləcə də hörmətli deputatlara söylədikləri dəyərli fikirlərə, insan hüquqlarına göstərdikləri həssas münasibətə görə dərin təşəkkürümü bildirirəm.

İlk sualı cavablandırmaq istəyirəm.

Bu suala cavab “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 13-cü maddəsində öz əksini tapmışdır. Maddənin 13.2.6-cı bəndində Müvəkkilin dövlət qurumlarının, bələdiyyələrin, digər qurumların, vəzifəli şəxslərin qərarı, hərəkət və hərəkətsizliyi nəticəsində insan hüquqlarının pozulması ilə bağlı məhkəməyə müraciət etmək səlahiyyəti təsbit olunmuşdur. 2025-ci il ərzində tərəfimizdən məhkəməyə belə bir müraciət olunmamışdır, amma məlumat üçün bildirirəm ki, əvvəlki illərdə Müvəkkil tərəfindən insan hüquqlarının müdafiəsi ilə bağlı məhkəməyə müraciət olunmuşdur və bu məsələdə Müvəkkilin həmin maddəyə münasibətini də qeyd etmək istəyirəm.

Məlumdur ki, müxtəlif dövrlərdə mülkiyyət hüquq pozuntuları ilə bağlı Müvəkkilin də ünvanına çoxsaylı müraciətlər olmuşdur. 2023-cü ildə müraciətlərin 12 faizi mülkiyyət hüququ pozuntuları ilə bağlıdır. Biz həmin müraciətlərə baxılmasından imtina edib aidiyyəti üzrə müvafiq məhkəmələrə vətəndaşları yönləndirmişik və qanunun 11-ci maddəsinə görə hüquq pozuntusu baş verdiyi vaxtdan 1 ildən artıq müddət keçərsə, Müvəkkil həmin müraciətə baxa bilmir və biz də vətəndaşları məhkəmə müdafiəsi hüququndan istifadə etməyə dəvət etmişik.

Müvəkkil icraatında olan həmin 12 faiz müraciətlərlə bağlı məhkəməyə özü müraciət etməlidir, çünki ayrıseçkiliyin aradan qaldırılması, bərabərliyin təşviq edilməsi birbaşa Müvəkkilin səlahiyyətinə aid məsələdir. Biz fəaliyyətimizdə də ayrıseçkilik məsələlərinə həssaslıqla yanaşırıq, buna görə də hansı məsələlərlə bağlı məhkəməyə müraciət edirik onu vurğulamaq istəyirəm. Belə ki, Müvəkkil əsaslı faktlar olduqda və şəxslər həmin faktları əldə edə bilmədikdə, ümumiyyətlə, hüquqlarının müdafiəsində çətinlik çəkən şəxslər barəsində məhkəməyə müraciət edir.

Təcrübəmizdə olan məsələləri diqqətə çatdırmaq istəyirəm.

Cəzaçəkmə müəssisəsində məhkumun qanunsuz olaraq cərimə təcridxanasında saxlanılması faktı Müvəkkil tərəfindən müəyyən edildiyinə görə bu faktı məhkəməyə təqdim edib, şərti olaraq azadlığa buraxılma ilə bağlı müraciətdə cəzaçəkmə müəssisəsinin mülahizəsinin nəzərə alınmamasını məhkəmədən xahiş etmişik və həmin müraciət məhkəmə tərəfindən nəzərə alınmışdır.

Digər məsələ isə istintaq aparıldığı qərardan Müvəkkil narazı qalmışdır və bununla bağlı rayon məhkəməsinə müraciət olunmuşdur. Məhkəmə tərəfindən Müvəkkilin müraciəti nəzərə alınmış və təmin olunmuşdur.

İkinci sualı cavablandırmaq istəyirəm.

Sual rayonlar üzrə statistika və hansı rayonlardan daha çox şikayətlərin daxil olduğu haqqındadır. Bilirsiniz ki, məruzə olduqca geniş tərtib olunur, məhz Aparat daxilində fəaliyyətimizdə də geniş elmi analitik təhlillər aparılır və daxili hesabatlar hazırlanır. Bu hesabatlarda ərazilər, hüquqi və sosial kateqoriyalar üzrə hansı hüquq pozuntusu hansı ərazidən daha çox olduğu məsələlər üzrə təhlillər aparılır və ümumiləşdirilərək Müvəkkil Aparatında sənədləşdirmə işi təşkil olunur.

Bu il ərzində olan göstəriciləri diqqətinizə çatdırmaq istəyirəm.

Naxçıvan şəhərindən 65 müraciət daxil olmuşdur. Şərur, Babək, Kəngərli, Culfa, Şahbuz, Sədərək və Ordubad rayonları üzrə apardığımız təhlillərdən belə nəticəyə gəlmişik ki, əhali sayına görə Naxçıvan şəhəri, Şərur və Babək rayonları ən çox müraciət daxil olmuş ərazilərdir.

Üçüncü sualı cavablandırmaq istəyirəm.

Sual yerində araşdırma ilə bağlıdır. Bu da Müvəkkilin müraciətləri araşdırarkən həyata keçirməli olduğu səlahiyyətlərdən biridir. Tərəfimizdən yerində araşdırmalar aparılmışdır.

2025-ci il üzrə 60 başçəkmə, 88 monitorinq, 6 vəzifəli şəxsin yazılı arayışı tələb olunmuş, bir iş üzrə dövlət qurumlarının nümayəndələri Müvəkkil Aparatına dəvət olunmuş, 4 iş üzrə yerində baxış keçirilmişdir.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Günay xanım!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsinin nəzərə alınması ilə bağlı qərar layihəsi hazırlanmışdır.

“Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 24-cü maddəsinə əsasən “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsini dinləyərək, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

“Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi nəzərə alınsın.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat "Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında" Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Hörmətli Günay xanım, məruzə ilə bağlı müzakirələrdə iştiraka görə sizə təşəkkür edirik.

Gündəlikdə duran ikinci məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğunlaşdırılması məqsədi ilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanmış, deputatlara təqdim edilmişdir.

Layihə Hüquq siyasəti komitəsinin 17 fevral 2026-cı il tarixli iclasında komitə sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda 1 maddə üzrə dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Dəyişikliyə əsasən, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa “Deputatın köməkçisi” adlı yeni bir maddənin (maddə 21-1) əlavə edilməsi nəzərdə tutulur.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa əlavə edilməsi nəzərdə tutulan maddənin məzmunu aşağıdakı kimidir:

**“Maddə 21-1. DEPUTATIN KÖMƏKÇİSİ**

Deputatın fəaliyyətinin təmin edilməsi məqsədilə onun köməkçiləri ola bilər.

Deputatın köməkçiləri Naxçıvan Muxtar Respublikasının büdcəsi hesabına saxlanılır.

Deputatın köməkçisinin işə qəbulu Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

Deputatın köməkçisinə aid əlavə tələblər Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin sərəncamı ilə müəyyən edilir.”.

Layihənin hazırlanmasındakı əsas məqsəd Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının fəaliyyətlərinin təmin edilməsi və “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılmasıdır.

Qeyd etmək lazımdır ki, qanunverici orqanların səmərəli fəaliyyəti dövlət idarəçiliyinin keyfiyyətini müəyyən edən əsas amillərdəndir.

Bir çox ölkələrdə, o cümlədən Azərbaycan Respublikasının Milli Məclisi kimi ali qanunverici qurumlarda deputatların fəaliyyətinin daha effektiv təşkili üçün onlara köməkçi (müşavir və ya referent) verilməsi praktikası tətbiq olunur. Bu yanaşma yalnız texniki dəstək deyil, həm də qanunvericilik keyfiyyətinin yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır.

İstər deputatların qanunvericilik təşəbbüsü sahəsindəki fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, vətəndaş qəbullarının sistemləşdirilməsi, analitik informasiya dəstəyi, istərsə də deputatlar tərəfindən aparılan qəbulların rəsmiləşdirilməsi, sorğu, çıxış, müraciət, hesabat və digər sənədlərin layihələrinin hazırlanması baxımından deputatların köməkçilərinin olması çox önəmlidir.

Eyni zamanda 45 yeni iş yerinin yaradılması Naxçıvan Muxtar Respublikasında məşğulluğun təmin edilməsinə dəstək verilməsi, gənc kadrların qanunverici orqan olan Naxçıvan Muxtar Respublikası Ali Məclisində təcrübə keçmələri, təcrübəli kadrların yetişdirilməsi və kadr hazırlığı baxımından layihə təqdirəlayiqdir.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə 17 fevral 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsində baxılmışdır. Komitə iclasında qanun layihəsi barədə ətraflı məlumat verilmiş, layihə iclas iştirakçılarının müzakirəsinə təqdim olunmuşdur. Komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy qəbul edilmişdir. Qəbul edilmiş rəyə əsasən qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının fəaliyyətlərinin təmin edilməsi və "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılmasının təmin edilməsi məqsədilə hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Komitə üzvlərinə paylanılmış, komitənin 17 fevral 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur. Qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir və onun üzərində iş davam etdirilir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşu ilə bağlı keçirilən səsvermədə iştirak edən 44 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!